*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 noyabr 2018-ci il № 91 (2307) Qiyməti 25 qəpik


## Prezident İlham Əliyev Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğulayaraq ölkələrimizin dövlət başçıları arasında müntəzəm görüşlərin əlaqələrimizin möhkəmlənməsində xüsusi rol oynadığını qeyd etdi və bu görüşlərin ölkələrimizi bir-birinə daha da yaxınlaşdırdığını bildirdi. Prezident İlham Əliyev bildirdi ki, bu il Bakıda Türkiyə zabitlərinin də iştirak etdiyi iki hərbi paradın keçirilməsi, xüsusilə Bakının işğaldan azad edilməsi ilə bağlı təşkil edilmiş hərbi parad bütün dünyada böyük maraqla izlənilib və bu tədbirlər bir daha Türkiyə-Azərbaycan birliyini nümayiş etdirib. Dövlətimizin başçısı hərbi sahədə əməkdaşlığımızın genişlənməsində Azərbaycan ilə Türkiyənin birgə hərbi təlimlərinin böyük önəm daşıdığını bildirdi. Prezident İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerin səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşdən böyük qürur hissi keçirdiyini bildirdi. Yaşar Güler qeyd etdi ki, bir millət, iki dövlət olan Türkiyə ilə Azərbaycan ortaq tarixə, mədəniyyətə malikdirlər və ölkələrimiz arasında strateji iş birliyi gündən-günə möhkəmlənməkdədir. O, bir daha Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illik yubileyi münasibətilə dövlətimizin başçısını təbrik etdi və bu əlamətdar hadisədən Türkiyənin də qürur hissi keçirdiyini vurğuladı. Yaşar Güler Azərbaycanın gələcəkdə də böyük inkişafa nail olacağına əminliyini ifadə etdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Yaşar Güler qeyd etdi ki, bu, Azərbaycan üçün önəmli olduğu qədər Türkiyə üçün də önəmli məsələdir.

Sonda Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

## "Üçtərəfli görüş Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlığın strateji səviyyədə olmasını təsdiq edir"

*Azərbaycanın Müdafiə nazirinin, Gürcüstan və Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəislərinin növbəti üçtərəfli görüşü Türkiyədə keçiriləcək.*

AZƏRTAC xəbər verir ki, bunu noyabrın 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Bakıda keçirilən üçüncü üçtərəfli görüşün yekunlarına dair mətbuata açıqlamasında deyib.

Görüşün üç qardaş ölkənin dövlət başçılarının tapşırığı ilə təşkil olunduğunu bildirən nazir toplantıda regiondakı hərbi-siyasi vəziyyətin müzakirə edildiyini vurğulayaraq deyib: "Bu görüş üç qardaş ölkə arasında əməkdaşlığın strateji səviyyədə olmasını təsdiq edir. Görüşün məqsədi üç dövlətin regionda həyata keçirdiyi strateji, iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsinə, bölgədə sülhün və sabitliyin qorunmasına dəstək verməkdir".

General-polkovnik Zakir Həsənov qeyd edib ki, görüşdə işçi qrupunun bir neçə il ərzindəki fəaliyyətinin yekunlarına dair hesabat məruzəsi dinlənilib, gələn il üçün tədbirlər planı təsdiqlənib. Tədbirdə dövlətlərin ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının vacibliyi bir daha bəyan edilib. Üçtərəfli formatda hər üç ölkənin ordusunun əməkdaşlığının inkişafının, hərbi, hərbi təhsil, hərbi tibb və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyəti qeyd olunub. İqtisadi layihələrin təhlükəsizliyinin təmin olunması baxımından üçtərəfli komanda-qərargah təlimlərinin davamlı təşkilinə dair fikir mübadiləsi aparılıb. Hazırda bu təlimlər Türkiyə ərazində keçirilir. İclasda növbəti üçtərəfli görüşün Türkiyənin təklifi əsasında bu ölkədə keçirilməsi qərara alınıb.

## "Belarusa rəsmi səfər Azərbaycan Prezidentinin xarici siyasətinin növbəti uğurudur"

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Milli Məclisin sədr müavini Bahar Muradova deyib.

Azərbaycanın və Belarusun strateji tərəfdaşlar olduğunu xatırladan Bahar Muradova qeyd edib ki, dövlətlərimiz bir çox vacib məsələlərdə qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirir. Bir çox məsələlərdə mövqe birliyi var. Bu səfər zamanı da bildirildi ki, hər iki dövlət bir-birinin maraqlarını qarşılıqlı şəkildə bütün müstəvilərdə qoruyur. Bunun nümunələri bu günə qədər göstərilib.

Milli Məclisin sədr müavini deyib ki, bu səfər həm müzakirə olunan məsələlər, həm imzalanan sənədlər, həm də hər iki prezidentin verdiyi bəyanatın ruhu ilə diqqəti cəlb etdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, o cümlədən digər bu kimi münaqişələrin beynəlxalq hüququn prinsipləri, dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsipləri əsasında həll olunmasının vacibliyinin vurğulanması onu göstərir ki, dünyada bu mövqeni dəstəkləyən ölkələrin sayı getdikcə çoxalır. Azərbaycan və Belarus da bu kimi məsələlərdə öndə gedən dövlətlərdir. Eyni zamanda, xalqlarımızın, müvafiq dövlət qurumlarımızın yaxşı münasibətlərinin, o cümlədən prezidentlərimizin möhkəm dostluğunun əlaqələrə çox müsbət təsir göstərdiyinin şahidi oluruq.

# Bakıda Azərbaycanın Müdafiə nazirinin, Türkiyənin və Gürcüstanın Baş Qərargah rəislərinin iştirakı ilə üçtərəfli görüş keçirilib



Bakıda üçtərəfli formatda keçirilən görüşdə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerin və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaianın rəhbərlik etdikləri nümayəndə heyətləri noyabrın 21-də Şəhidlər xiyabanını ziyarət ediblər.

Nümayəndə heyətlərinin üzvləri Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş vətəndaşlarımızın məzarları üzərinə gül dəstələri düzüb, şəhidlərimizin xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar. Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tərəflər regional iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsi, ikitərəfli əsasda və NATO proqramları çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər barəsində fikir mübadiləsi aparıblar.

* * *

Noyabrın 21-də Bakıda Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerin və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaianın iştirakı ilə üçtərəfli görüş keçirildi.

Görüşdə üçtərəfli formatda əməkdaşlığın inkişaf etdirilməsi, regional sabitliyin, o cümlədən bölgədə həyata keçirilən layihələrin təhlükəsizliyinin təmin olunması və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan, Türkiyə və Gürcüstanın ordu rəhbərlərinin üçtərəfli toplantısı dövlətlərimizin strateji səviyyədə əməkdaşlığının bariz nümunəsidir. Bu toplantını üçüncü dəfədir keçiririk. Görüşün əsas məqsədi bölgədə sabitliyin və sülhün bərqərar olması, üç dost və qonşu dövlətin həyata keçirdiyi strateji-iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsi, ölkələrimizin Silahlı Qüvvələri arasında əməkdaşlığın dərinləşməsidir. Əminəm ki, bu toplantı yüksək səviyyədə keçiriləcək.

Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaia qeyd edib ki, bizim əlaqələrimizin böyük tarixi var. Biz regionda strateji tərəfdaşlarıq. Strateji tərəfdaşlıq çərçivəsində hərbi əməkdaşlığımız çox mühümdür. Regionda həyata keçirilən layihələrin təhlükəsizliyinin təmin edilməsi üçün bu əməkdaşlıq uğurla davam edir. Başa düşürük ki, bu, çox əhəmiyyətli görüşdür.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler qardaş Azərbaycanda olmaqdan məmnunluğunu bildirərək deyib ki, bu gün üç dost və qardaş ölkənin Silahlı Qüvvələrinin komandanlığı mühüm toplantını keçirmək üçün bir araya gəliblər. Bu, bizim üçüncü görüşümüzdür. Bir-birimizlə həm ikitərəfli, həm də üçtərəfli görüşlər keçirərək bölgədəki vəziyyəti müzakirə edəcəyik. Hərbi əlaqələrimiz mükəmməl şəkildə genişlənir. Strateji səviyyəyə çatmış hərbi əlaqələrimizi daha da inkişaf etdirmək üçün üzərimizə düşən vəzifələri yerinə yetirməyə çalışacağıq. İnanıram ki, bu gün keçirilən görüşdə çox vacib nəticələr əldə edəcəyik.





* * *

Noyabrın 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaia ilə görüşüb.

Görüşdə tərəflər regional iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsi, ikitərəfli əsasda və NATO proqramları çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

* * *

Noyabrın 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler ilə görüşüb.

Görüşdə regional təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlıq, birgə hərbi təlimlərin keçirilməsi, hərbi mütəxəssislərin qarşılıqlı səfərlərinin təşkili və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

* * *

Noyabrın 21-də Azərbaycanın Müdafiə nazirinin, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin Bakıda keçirilən üçtərəfli görüşünün yekunlarına dair birgə protokol imzalanıb.

Sənədi Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Yaşar Güler və Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaia imzalayıblar.

## "Üçtərəfli formatda əməkdaşlığın inkişafı bizi son dərəcə məmnun edir"

AZƏRTAC xəbər verir ki, bunu noyabrın 21-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler Bakıda keçirilən üçtərəfli görüşün yekunlarına dair mətbuata açıqlamasında deyib

Azərbaycan Müdafiə nazirinin, Türkiyə və Gürcüstan Silahlı Qüvvələri Baş Qərargah rəislərinin üçüncü üçtərəfli görüşünün Bakıda yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirən Y.Güler deyib: "Görüşdə bölgədə və dünyada sülhün, sabitliyin təmin olunmasının mühüm əhəmiyyət daşıdığı bu günlərdə yaxın regionda baş verən proseslərlə bağlı ətraflı fikir mübadiləsi apardıq. Toplantıdakı müzakirələrimizdə, eləcə də ikitərəfli görüşlərimizdə dost və qardaş ölkələrimizin mövqelərinin bir-birinə yaxın olduğu bir daha vurğulandı. Xüsusilə, regional təhlükəsizlik, qarşılıqlı əməkdaşlıq, mövcud problemlərin sülh yolu ilə həlli, ölkələrin beynəlxalq hüquq əsasında ərazi bütövlüyünün qorunması məsələlərində Türkiyə, Azərbaycan və Gürcüstan olaraq eyni mövqedəyik".

Ordu generalı Y.Güler bildirib ki, 2015-ci ildə Türkiyədə keçirilən ilk görüşdən sonra dost və qardaş ölkələrimiz arasında başlayan və gündən-günə güclənən üçtərəfli əməkdaşlıq bu gün uğurla davam etdirilir. Qonaq növbəti - dördüncü üçtərəfli görüşün Türkiyədə keçiriləcəyini bildirib, xoş arzularını diqqətə çatdırıb.

## "Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlığı regionda sabitliyin təmin olunmasına mühüm töhfə verir"

AZƏRTAC xəbər verir ki, bunu noyabrın 21-də Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Vladimer Çaçibaia Bakıda keçirilən üçtərəfli görüşün yekunlarına dair mətbuata açıqlamasında deyib.

Gürcüstanın üçtərəfli birgə hərbi təlimlərdə fəal iştirak edəcəyini deyən V.Çaçibaia bildirib ki, bu təlimlər hərbi qulluqçularımız arasında təcrübə mübadiləsi baxımından xüsusi əhəmiyyət malikdir. Eyni zamanda, hərbi təhsil və digər sahələrdə də fəal əməkdaşlıq edəcəyik.

Regionda təhdidlərin artmasının müşahidə olunduğunu vurğulayan Gürcüstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi qeyd edib ki, səylərimizi birləşdirərik bu təhlükələri aradan qaldıra bilərik. Azərbaycan və Türkiyə hər zaman Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyib, çətin günlərimizdə yanımızda olub. Biz bunu daim xatırlayırıq.

Ön xətdən reportaj

# "Vətənimizi azad, bütöv görəcəyik"

*Vətənimizin hər bölgəsi özünəxas gözəlliyi, adət-ənənəsi, musiqisi və bilmədiyimiz digər keyfiyyətləri ilə bir-birindən seçilir. Biz ezamiyyətlərdə olarkən bu gözəlliyi yaddaşımıza köçürürük. Növbəti ezamiyyətimiz soyuq bir payız gününə təsadüf edir. Ətraf aləm qızılı rəngə boyanıb, ağaclardan tökülən yarpaqlar torpağın örtüyünə dönüb. Belə günlərdə Vətənin keşiyində dayanan məğrur əsgərlərimiz torpaqlarımızın müdafiəsində dayanıblar. Onlar hər zaman Vətənimizin, xalqımızın azadlığı naminə şəhid olmağa, Qarabağımızı düşmən tapdağından azad etməyə hazırdırlar.*



Ön xətdə yerləşən "N" hərbi hissəsindəyik. Qərargahda gəlişimizin məqsədini bildirəndən sonra "UAZ" markalı maşınla dağlara - düşmənlə təmas xəttində yerləşən mövqelərimizə yola düşürük. Düşünürəm ki, Vətənimizin keşiyini çəkən igid oğulları ziyarət etmək cəmiyyətdə tutduğu vəzifəsindən, mənsubiyyətindən asılı olmayaraq hər birimizin



vətəndaşlıq borcudur, bizim həm də xidməti borcumuzdur. Millət vəkillərinin, söz-sənət adamlarının, bir sözlə, ictimaiyyət nümayəndələrinin ön xəttə səfər etməsindən, burada xidmət edən hərbi qulluqçularla görüşməsindən xəbər tutanda çox sevinirik. Çünki bu gün dövlətimizin başçısının, ordu rəhbərliyinin hərtərəfli qayğısı ilə əhatə olunan əsgərlərimizin yalnız sözlü-söhbətli qonağa ehtiyacı var. Zabit Rüstəm Məmmədov qeyd etdi ki, ziyalıların, cəmiyyətimizdə tanınan insanların əsgərlərlə hər görüşü şəxsi heyətin həyatında unudulmaz hadisəyə çevrilir. "Ordumuz yalnız mənsub olduğu xalqın dəstəyini hiss edəndə güclüdür. Ordu və xalq daima bir olmalıdır. Bu gün insanlar tez-tez əsgərlərimizlə görüşə gəlir, onlarla söhbət edir, şəraitləri ilə tanış olurlar. Doğrudan da, əsgərlərimizin mənəvi hazırlığında, ruh yüksəkliyində belə görüşlərin keçirilməsi əhəmiyyətli xarakter daşıyır", - zabit deyir.

Yolboyu gördüklərim məni qürurlandırırdı. Ən çox da məktəbli uşaqların hərbi maşını görəndə gülümsəmələri və hərbi salam verməleri. Xoş təəssüratlar oyadır insanda bu cür məqamlar. Bu məqam kənd sakinlərinin, əsas da uşaqların əsgərlərimizə inamının bariz nümunəsidir. Azərbaycan əsgərinə hərbi salam verən məktəbli sabah özü də xidmətdə olacaq. Gələcəkdə onun inandığı əsgərin övladı da ona hərbi salam verəcək. Bax, bu ənənə, inam illər ötdükcə davam edəcək...

Mövqeyə yaxınlaşırıq. Bir azdan torpaqlarımızın müdafiəçiləri ilə söhbətləşəcəyik. Uca boylu, üzündən məğrurluq yağan bir zabit bizə yaxınlaşır. O qeyd edir ki, əsgərlərimiz ön xətdə xidmət etməkdən son dərəcə qürurludurlar. "Hər birimizin borcudur ki, doğulub boya-başa çatdığımız Vətən torpağını qoruyub müdafiə edək. Vətəni qorumaq sevdiklərimizi, xalqı və dövləti qorumaqdır. Tarix boyu xalqımızın qəhrəman oğulları azadlığımız uğrunda vuruşub, şəhid olublar. Onlar öz vətəndaşlıq borclarını yerinə yetiriblər. İndi onların bizə bəxş etdiyi azadlığı qoruyub saxlamalı, gələcək nəsillərə ötürməliyik. Bunun üçün də hamımız bir olmalı, torpağımıza əl uzatmağa çalışan düşmənin əllərini kəsib atmalıyıq", - deyən baş leytenant Emin Mehdiyevin gözlərindəki Vətən sevgisini görməmək mümkün deyildi. Hər kəlməsindən torpağına bağlılığı hiss olunan zabit tabeliyindəki əsgərlərə daim vətənpərvərlik hissini aşıladığını da qeyd edir.

Səngərdə Vətənimizi qoruyan mərd oğulların əhatəsində dayandığımıza görə sevincliyik. Səngər həyatı gənclərin sınaq meydanıdır. Burada yüksək mənəvi dəyərlərə malik olan Azərbaycan gəncləri xidmət edir.

Goranboy rayonundan olan əsgər Kənan İsgəndərov hərbi xidmətinin bir hissəsini artıq başa vurub. O da silahdaşları kimi ön xətdə xidmət etdiyinə görə fəxr edir. O deyir:

- Yaşadığım bölgə işğalçı Ermənistanla sərhəd olduğuna görə bizim yerlərdə də müharibə gedib. Valideynlərimdən, böyüklərimizdən müharibə haqqında çox eşitmişəm. Oğullarımız zamanında döyüşə könüllü gedib, amma hazırlıqlı ordu olmadığı üçün o vaxt itkilərimiz çox olub, torpaqlarımızın bir hissəsi işğal olunub. İndi tam fərqli bir ordunun əsgərləriyik. Hərtərəfli təminatımız, müasir silah-texnikalarımız var. Daha düşmən bizə güc gələ bilməz. Düşmən bilir ki, onun qarşısında dayanan hazırlıqlı Azərbaycan Ordusudur. Bu gün onlar dərk edirlər ki, ordumuz Ali Baş Komandanımızın bir əmri ilə tarixi torpaqlarını azad etməyə tam hazırdır.

Hərbi xidmətə Kürdəmir rayonundan çağırılan əsgər Şahvələd Məmmədov hərbi xidmət təəssüratlarından, yaddaqalan günlərindən danışır. "Vətənimə əsgər olmağımdan qürur duyuram. Sabah Vətən üçün nə etmisən? - sualını eşidəndə deyəcəm ki, ön xətdə xidmət etmişəm, düşmənlə üzbəüz mövqedə torpaqlarımızı qorumuşam. Əslində, hər bir gəncin həyatda ən vacib vəzifəsi əsgər olmaq, düşmənlə savaşa atılmağa qadir olan mübariz döyüşçü kimi yetişməkdir. Mən də komandirlərimə, təcrübəli silahdaşlarıma minnətdaram ki, onların sayəsində Vətənimizi qorumaq naminə hərbi təcrübəyə yiyələnmişəm. Orduda keçən günlərimi həyatımın ən mənalı dövrü sayıram. Hərbi xidmətə gəldiyim, sırada dayandığım, təntənəli şəkildə Hərbi andı qəbul etdiyim günləri unuda bilmərəm. Amma ilk dəfə döyüş növbətçiliyində dayandığım gün yaddaşımda silinməz izlər buraxıb."

- Niyə məhz həmin gün sənin üçün yaddaqalan oldu?

- Həmin gün mənə ən məsuliyyətli bir vəzifə - Vətənimizin qorunması etibar edilmişdi. Gecənin bir vaxtı hər tərəf sakit idi. Sanki ətraf lal sükuta qərq olmuşdu. Düşünürdüm ki, bircə an belə sayıqlığı əldən vermək olmaz. Qarşıda xalqımıza qarşı qanlı faciələr törətmiş düşmən var. Düşməni gözdən qoysam, nələr baş verər? Bu düşüncələr məni məsuliyyətli, ayıq-sayıq olmağa yönəltdi. Həmin anda qürur duydum ki, mən də Vətənimə gərəkli insanlardan biriyəm. Mən də xalqımızın, dövlətimizin müdafiəsində dayanan ordunun əsgəriyəm.



"Əsgərlərimizin bu cür düşüncələri hamımızı qürurlandırır. Belə əsgərləri olan orduda xidmət etmək bizlərə də sonsuz sevinc bəxş edir", - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Röyal Məmmədov söhbətimizə qoşulur. Röyal Məmmədov əsgəri xidmətini ön xətt hərbi hissəsində keçirib. Pulemyotçu olan Röyal Məmmədov bildirir ki, ən böyük arzusu döyüşlərə atılmaq və tabeliyindəkilərlə birgə tarix yazmaqdır. "Əsgərliyə çağırılanda aprel döyüşləri yenicə başa çatmışdı. Təəssüflənirdim ki, döyüşlərdə iştirak edə bilmədim. Əgər bir müddət qabaq gəlsəydim, tarixləşən igidlərimizin sırasında mənim də adım çəkiləcəkdi. Dərk etdim ki, igidlik təkcə döyüşdə qazanılmır. Vətəni məsuliyyətlə qoruyan, ömrünü Vətənin taleyiylə bağlayan hər kəs igiddir, qəhrəmandır. Ona görə də xidmətimi başa vuran kimi yenidən ordu sıralarına qayıtdım. Bu gün sevincliyəm ki, Vətənimin taleyinə şərik olanlardanam. Bir vaxt gələcək ki, onun yarasına da məlhəm çəkənlərin sırasında olacağıq. Az bir müddətdir manqa komandiriyəm. Bu müddətdə təkcə bir məqsəd üçün çalışmışam - tabeliyimdə olanların döyüş hazırlığını yüksəltmək, onların vətənpərvər ruhda xidmət etməsini təmin etmək. Hər döyüş növbətçiliyini dəyişəndə onlara deyirəm ki, qarşıda dayanan düşməni diqqətlə müşahidə edin. Gün gələcək Ali Baş Komandanımız döyüş əmri verəcək və sizinlə birlikdə düşməni məğlub edərək xalqımıza Qələbə sevinci bəxş edəcəyik. Bax, onda tarix yazan Azərbaycan oğulları sırasında olacağıq".

Sumqayıt şəhərindən olan əsgər Mehdi Qəhrəmanov da hər an döyüşlərə hazır olduqlarını bildirir. "Hər birimiz Vətənin müdafiəçiləriyik. Bizdən arxada olan hər kəs bizə inanır, güvənir. Ona görə də çalışırıq ki, bu inama layiq olaq. Vətən bizim üçün necə müqəddəsdirsə, onun üzərində yaşayan insanlar da elədir. Çünki tarix boyu qəhrəmanlar xalqın azad, firavan yaşaması üçün vuruşublar. Təhsil aldığımız məktəblərdə olduğu kimi, burada da komandirlərimiz Vətən uğrunda şəhid olan igidlərimizin keçdiyi döyüş yolunu bizimlə bölüşür, onlar kimi igid, qəhrəman olmağı tövsiyə edirlər. Bu gün səngərdə Vətənimizin keşiyində dayanmaqla döyüş sirlərinə yiyələnirik. Qarşıda bizi müqəddəs vəzifə - torpaqlarımızın işğaldan azad edilməsi vəzifəsi gözləyir. Mütləq Vətənimizi azad və bütöv görəcəyik."

Döyüş mövqeyində görüşdüyümüz bu məğrur əsgərlərin hamısı Mehdinin sözlərinə qoşularaq səngər ömrü yaşamağın nə qədər qürurverici olduğunu bildirərək, Vətənimizi azad, bütöv görmək üçün haqq savaşına atılacaqları günü həsrətlə gözlədiklərini dedilər.

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

*Gənc zabitlərimiz*

# Peşəmə ürəkdən bağlıyam

Respublikamızda ordu quruculuğuna yüksək diqqət və qayğı göstərilir. Təməli əbədiyaşar komandan Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycan dövlətinin regionun ən güclü ordusuna sahib olması bunun bariz nümunəsidir. Keçirilən irimiqyaslı təlimlər, beynəlxalq ordu oyunlarında hərbi qulluqçularımızın yüksək nailiyyətləri də ordu quruculuğu sahəsində uğurlu islahatlar aparıldığının bir daha təsdiqidir.



Ölkə rəhbərliyi tərəfindən ordu mənsublarına göstərilən yüksək diqqət gənclərimizdə hərb peşəsinə marağın gücləndirilməsi işinə də müsbət təsir edir. Əminliklə deyə bilərik ki, hərb peşəsi gənclərimizin ən çox seçdiyi və sevdiyi peşələrdəndir. Hərbçi olmaq arzusunda olan gənclərimiz bu peşəni özlərinə həyat yolu seçir və bu yolun müqəddəs olduğunu vurğulayırlar.

Belə hərbçilərdən birini tank bölmələrindən birində tanıdım. Komandirləri seçdiyi yolun hələ astanasında olmasına baxmayaraq, həm vətənpərvərliyi, həm də bilik və bacarığı ilə seçildiyini deyirlər. Əslən Lənkəran rayonundan olan gənc zabit Cəmşid Naxçıvanski adına Hərbi Liseyi və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini müvəffəqiyyətlə bitirib. Bölməyə təyin edilən gündən həm komandirlərinin, həm də tabeliyindəki şəxsi heyətin rəğbətini qazanıb. Onu tanımaq üçün tank saxlancına yollanıram. Tankın ətrafında düzülən şəxsi heyətə məşğələ keçirdi. Haqqında söhbət açdığım əsl komandirə xas olan liderlik xüsusiyyəti, idarəçilik bacarığı diqqətimi çəkdi. Şəxsi heyətə tankın döyüş xüsusiyyətlərindən danışır, istər texnika, istərsə də silahdan düzgün istifadə qaydalarını hər incəliyinə qədər öyrədirdi. O, dərsi izah edərək bildirdi ki, hər texnika kimi, tankın da özünəməxsus özəllikləri var. "Biz bunların hamısını yaxşı mənimsəməli, idarə etdiyimiz texnikanın təyinatını düzgün bilməliyik ki, döyüş meydanında düşməni tez zamanda dəqiq məhv edə bilək."

Leytenant Tofiq Həmidovun bu peşəyə marağının və sevgisinin ailədən bəhrələndiyini öyrənirəm. Əmisi Qarabağ müharibəsi veteranıdır. Hal-hazırda ehtiyatda olan zabitdir.

- Əmim müharibə veteranıdır, - leytenant dedi. - Qarabağ döyüşlərinin iştirakçısı olub. Uşaqlığımda mənə döyüşlərdən söz açıb, ermənilərin xalqımızın başına açdığı faciələrdən danışıb. Elə o vaxtdan düşmənə nifrətim oyanmışdı. Gələcəkdə hərbçi olmaq arzusu ilə döyünürdü ürəyim. İllər keçdikcə daha da formalaşan bu arzum məni C.Naxçıvanski adına Hərbi Liseyin kursantları sırasına apardı. Elə bu seçimimə də ən çox sevinən əmim oldu. Həmyerlim, Azərbaycanın əfsanəvi generallarından biri, məşhur hərb xadimi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovdan stimul alaraq tankçı ixtisasını seçdim. Həmişə onun İkinci Dünya müharibəsindəki hünər və şücaətindən bəhs edən kitabları maraqla oxuyur, qəhrəmanın mənalı ömür yolunu özümə nümunə bilirdim.

Danışdıqca simasında əks olunan sevinc və həyəcan, qürurlu baxışları gənc zabitimizin peşəsinə sonsuz sevgi ilə bağlandığını büruzə verirdi. Zabit düşüncələrinə sarılıb Hərbi liseydə "Şəref andı" içdiyi gündən danışdı: "Həmin mərasimdə ümummilli lider Heydər Əliyevin "Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır" sözləri səsləndiriləndə, çox qürurlandım. Seçdiyim peşənin müqəddəsliyini bir daha hiss etdim. Əbədiyaşar Komandanımızın həmin sözləri hələ astanasında olduğum bu şərəfli yoluma işıq saldı. Zabit peşəsi, doğrudan da, ən müqəddəs və vacib peşələrdən biridir. Çünki bu peşənin sahibləri Vətən qoruyucularıdır. Amma hərb peşəsi şərəfli olduğu qədər də çətin peşədir. Seçdiyim yolun məsuliyyətini və vacibliyini yaxşı dərk edirəm. Tabeliyimdəki şəxsi heyətə daim nümunə olmaq, əsgərlərin vətənpərvər, nizam-intizamlı və döyüşə hazırlıqlı olması üçün qazandığım bütün biliklərimi səfərbər edirəm."

Hərbi peşəyə olan sevgisi və bağlılığı hər kəlməsindən duyulan Tofiqlə həmsöhbət olmaq mənə xoş təəssürat bağışladı, illər sonra onun da Azərbaycan Ordusunun ən layiqli zabitləri sırasında yer tutacağına inamım güclüdür.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

22 noyabr 2018-ci il.

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında Nəmirli, Cəvahirli, Seyidli, Acarlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Nümunəvi xidmət*

# Səngər cəsurların məkanıdır



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissənin bölməsində nümunəvi xidməti ilə seçilən gizir Fərid Sanılı ilə yaxından tanış oluruq. Vəzifəsinin öhdəsindən uğurla gələn, xidmətini düzgün təşkil edən, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanan hərbi qulluqçumuzun əmisi Xəqani Sanılı Vətən uğrunda gedən döyüşlərdə şücaət göstərərək şəhidlik zirvəsinə ucalıb. Şəhid əmisinin adını daşıyan qardaşı leytenant Xəqani Sanılı da düşmənlə təmas xəttində yerləşən hərbi hissələrin birində xidmət edir. Babası Şəmsəddin Saniyev müharibə veteranı olub. Əsgər kimi aprel döyüşlərinin iştirakçısı olan, hərbçi ailəsində böyüyüb boya-başa çatan igidimizlə söhbət etmək bizim üçün qürurverici idir. Həmkarım uşaqlıqdan hərbçi olmaq arzusunda olduğunu bildirdi. "Uşaq vaxtlarımda ailəmizdə hər kəs əmim və babamın keçdiyi döyüş yollarından söhbət edərdilər. Atamın bizə dediyi sözlər heç bir zaman yadımdan çıxmayacaq. "O zaman nizami ordumuz yox idi, silah-texnikamız yetərincə güclü səviyyədə deyildi. Buna baxmayaraq, əmin və baban kimi mərd oğullarımız düşmən üzərinə atılırdı, torpaqlarımızın hər qarışı üçün mərdliklə döyüşürdülər. Hər zaman baban mənə deyərdi ki, könlündə Vətən sevgisi olan hər kəsin qarşısında düşmən məğlubiyyətə düçardır". Bu söhbətləri dinlədikcə qardaşımla mənim hərbçi olmaq istəyimiz günü-gündən artırdı. Nəhayət, hərbi xidmətə çağırıldım. Ön xətt bölmələrinin birində xidmət etdim. Hərb peşəsinin müqəddəsliyini daha yaxşı anladım. Həmçinin komandirlərimin davranışları, bizimlə rəftarı, mənəvi-əxlaqi keyfiyyətləri, Vətənə bağlılıqları bu peşəyə olan sevgimi daha da artırdı. Hərbi xidmətimi başa vurmağa az qalmış, gizir hazırlığı kursuna getmək üçün müraciət etdim və bununla da şərəfli yoluma davam etdim. Bu gün əldə silah Vətən torpaqlarının keşiyində dayanan bir hərbçi, bir vətəndaş kimi üzərimə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışıram.



Mövqelərimizdə dayanıb düşmən işğalı altında qalan torpaqlarımıza baxanda ürəyim ağrıyır. Bu torpaqları azad etmək qarşımızda dayanan ən mühüm, ən müqəddəs vəzifədir. Bu vəzifəni yerinə yetirmək üçün Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə hər an döyüşə atılmağa hazırıq".

Hər iki qardaş ön xətdə Vətənimizi qoruyur. Bir ailədən iki oğulun hərbçi olması, Vətənin keşiyində dayanması, elə, obaya, torpağa olan sevginin təzahürüdür. Bu bir daha sübut edir ki, gəncliyimiz vətənpərvərlik tərbiyəsində böyüyür.

- Üzərimə düşən vəzifənin müqəddəsliyini və məsuliyyətini yaxşı başa düşürəm. Bu vəzifələri həm də mənəvi borc bilirəm. Qarşıdakı mövqeləri daim müşahidədə saxlayır, düşmən atəşkəsi pozanda və ya hər hansı bir təxribata əl atmağa cəhd edəndə vaxtında qarşısını alırıq. Bütün təminatlarımız da qaydasındadır. Ölkə rəhbərliyi uğurlu xidmətimiz üçün hər cür şərait yaradıb. Belə diqqət və qayğı hər birimizə yüksək döyüş ruhu aşılayır, xidməti düzgün təşkil etməyimizə zəmin yaradır, - gizir Fərid Sanılı dedi.

Söhbətimizin sonunda Fərid onu da bildirdi ki, qəsbkarlar hər an ordumuzun gücünü, qüdrətini hiss edir. "Bu il Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illik yubileyləri münasibətilə Azadlıq meydanında keçirilən hərbi paradlar da bu gücün, bu qüdrətin təsdiqidir. Keçirilən paradlar, aprel döyüşləri və Günnüt zəfəri bir daha təsdiqlədi ki, yenilməz ordumuz torpaqlarımızı tez bir zamanda işğaldan azad edəcək."

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

*Milli qəhrəmanlarımız*

# Qəhrəmanlar tarix yaradır

## Milli Qəhrəman Gültəkin Əsgərovanın xatirəsinə həsr olunan tədbir keçirildi




*Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın doğum gününə həsr olunan tədbir keçirildi. Tədbirdə Müdafiə Nazirliyinin, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin və ictimaiyyətin nümayəndələri, millət vəkilləri Qənirə Paşayeva və Adil Əliyev, ziyalılar, həmçinin Gültəkin Əsgərovanın ailə üzvləri və döyüşçü yoldaşları iştirak etdilər. Xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

Tədbiri giriş sözü ilə açan Əməkdar mədəniyyət işçisi polkovnik-leytenant Zöhrab İmamquliyev bildirdi ki, müstəqilliyimiz və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların göstərdiyi qəhrəmanlıqların təbliği Vətəninə və xalqına bağlı gənclərin formalaşmasına töhfə verir.

Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərova 20 noyabr 1960-cı ildə Bakı şəhərində dünyaya göz açıb. Azərbaycan Dövlət Tibb Universitetini bitirib. Təhsil illərində Daxili İşlər Nazirliyinin Hərbi hospitalında əvvəlcə kiçik tibb bacısı, sonra isə böyük tibb bacısı vəzifəsində çalışıb. Ali məktəbi bitirdikdən sonra 8-ci Təcili Yardım Stansiyasında, daha sonra uroloji xəstəxanada anestezioloq-reanimatoloq vəzifəsində işləyib. 4 aprel 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanır. Əvvəlcə Turşsuda, sonra isə Şuşada neçə-neçə yaralı əsgərə tibbi yardım göstərib. Şuşanın işğalından sonra Laçının, Qubadlının müdafiəsində yaxından iştirak edib. 20 iyun 1992-ci ildə Aranzəmin-Naxçıvanik istiqamətində gedən ağır döyüşdə öz xidməti borcunu yerinə yetirərkən qəhrəmancasına həlak olub. Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 1993-cü il tarixli Fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Oxuduğu 200 saylı orta məktəbə onun adı verilib, büstü qoyulub. Xəzərdə üzən gəmilərdən biri qəhrəmanın adını daşıyır, gəmidə muzeyi yaradılıb. Bakının Nərimanov rayonundakı xəstəxananın önündə büstü qoyulub. Haqqında bir neçə kitab yazılıb.

Millət vəkili Qənirə Paşayeva Ermənistanın Azərbaycan torpaqlarına qarşı işğalçılıq siyasəti başlayandan xalqın qeyrətli oğulları ilə yanaşı, Vətən qızlarının da silaha sarıldığını, bir neçə nəfərin şəhidlik zirvəsinə yüksəldiyini bildirdi. Onlardan biri - Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərovanın keçdiyi döyüş yolu haqqında geniş məlumat verdi. Qənirə Paşayeva Vətən uğrunda canından keçən qəhrəmanlarımızın yaşadığı qısa, lakin şərəfli həyat yolunun gənclərimizə əsl örnək olduğunu diqqətə çatdırdı. "O, kişi qeyrətli bir qız idi. Ana Vətən üçün qız çox dəyərlidir. Qızların da Vətən qarşısında borcu böyükdür. Hesab edirəm ki, o borcu hamı ödəməlidir".

Millət vəkili onu da qeyd etdi ki, əsl qəhrəmanlıq yaşarı qəhrəmanlıqdır. Qəhrəmanların döyüş yolu da, qəhrəmanlığı da zaman-zaman gənclərə, yeniyetmələrə örnək olur. Gültəkin Əsgərova belə qəhrəmanlardan olub.



Millət vəkili Adil Əliyev Gültəkinin döyüş yolunun gənclərimiz üçün əsl qəhrəmanlıq nümunəsi olduğunu, milli-mənlik şüurunun, vətənpərvərlik ruhunun yüksəldilməsinə böyük təsir etdiyini vurğuladı, bu cür tədbirlərin keçirilməsinin vacibliyini xüsusilə qeyd edərək bildirdi ki, gənc nəslin Milli qəhrəmanlarımızı tanıması üçün hər birimiz fəal olmalıyıq. "Vətənimizin müstəqilliyindən, xalqımızın azadlığından dəyərli heç nə ola bilməz. Ölkəmizin inkişafı istiqamətində gənclərin üzərinə böyük vəzifələr düşür. Savadlı nəslin formalaşması və vətənpərvər ruhunda yetişməsi də Azərbaycanın güclənməsinə müsbət təsir edir. Güclü dövlətin güclü ordusu da olur. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bunu daim diqqət mərkəzində saxlayır. Bu istiqamətdə həyata keçirilən bütün tədbirlər onu deməyə əsas verir ki, Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Azərbaycan Ordusunun müdafiə qüdrətinin yüksək səviyyədə olmasını aprel döyüşləri və Günnüt zəfəri bir daha təsdiqlədi".

Millət vəkili Gültəkin Əsgərovanın timsalında bütün şəhid övladlarımızın qəlbimizdə, xalqımızın yaddaşında əbədi olaraq yaşayacağını, heç zaman unudulmayacağını vurğulayaraq, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tezliklə düşmən üzərində Böyük Qələbənin qazanılacağına əminlik ifadə etdi.

Gültəkin Əsgərovanın anası Rəfiqə Əsgərova anım təşkilatçılarına dərin minnətdarlığını bildirərək ölkə rəhbərliyinin şəhid ailələrinə daim diqqət və qayğı ilə yanaşdığını bildirdi. "Vətən müqəddəsdir. Şəhidlərimiz Vətənimizin azadlığı uğrunda vuruşdular. Mənim qızım da torpaqlarımızın erməni təcavüzkarlarından müdafiə edilməsində iştirak etməyi müqəddəs borcu sayırdı. Həmişə gəncləri Azərbaycanın müstəqilliyini qorumağa, ərazi bütövlüyümüzü təmin etməyə hər an hazır olmağa çağırırdı. Vətənin dar günündə Gültəkin körpə qızını mənə tapşıraraq cəbhəyə yollandı. Qızımın döyüş yoldaşları bu gün də mütəmadi olaraq mənimlə, nəvəmlə əlaqə saxlayır. Gültəkinin sadəliyindən, qoçaqlığından danışırlar".




Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri ehtiyatda olan polkovnik Mehdi Mehdiyev çıxış edərək müstəqilliyimizin, torpaqlarımızın ərazi bütövlüyünün müdafiəsinin şəhidlərimizin fədakarlığının bahasına başa gəldiyini, Ermənistanın yürütdüyü işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın işğal olunduğunu tədbir iştirakçılarının diqqətə çatdırdı, ehtiyatda olsa da, hər an döyüşə yollanmağa hazır olduğunu vurğuladı. Vətənimizin inkişafı, çiçəklənməsi, işğal altında olan torpaqlarımızın azadlığı üçün hər an Ali Baş Komandanın döyüş əmrini gözlədiklərini dedi.

Ehtiyatda olan polkovnik qeyd etdi ki, hər döyüş bir tarixdir. Hərbçilər həm də tarix üçün döyüşürlər. Bu tarix torpağın, deməli, Vətənin tarixidi. Deməli, hər qəhrəman şücaəti ilə qəhrəmanlıq tarixi yazır. Azərbaycanın Milli Qəhrəmanı Gültəkin Əsgərova belə qəhrəmanlardandır. Biz əminik ki, onların döyüş yolu tariximizin bir zərrəsidir.

Tədbirdə çıxış edənlər erməni təcavüzkarlarına qarşı mübarizədə şücaət göstərmiş qəhrəman xanımlardan söz açaraq, onların gənclərə örnək olduğunu dedilər. Ordumuz regionun ən güclü ordusudur, torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Qadınların sıralarımızda tibb bacısı, həkim kimi çalışmalarının böyük əhəmiyyəti olduğunu dedilər.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin solistlərinin Vətənə və vətənpərvərliyə həsr olunmuş ifaları ilə davam etdi.

Gültəkin Əsgərovanın anası Rəfiqə Əsgərova "Əsgər ocağı" fəxri diplomu, bir sıra şəxslər isə fəxri fərmanla təltif olundular.

Tədbirin sonunda iştirakçılar xatirə şəkli çəkdirdilər.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Hikmət Hacıyev: Prezident İlham Əliyevin Belarusa rəsmi səfəri ikitərəfli əlaqələrimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi

*Azərbaycan Respublikası ilə Belarus Respublikası arasındakı münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Bu münasibətlərin formalaşmasında və inkişafında dövlətlərimizin başçıları arasındakı səmimi dostluq münasibətləri, dialoq və qarşılıqlı anlaşma mühüm rol oynayır.*

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına rəsmi səfərinin nəticələri barədə AZƏRTAC-a açıqlama verən Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, dövlət başçıları tərəfindən müəyyən olunan tapşırıqlar əsasında əməkdaşlığın hərtərəfli inkişafının məqsədləri müəyyənləşdirilir. İndiyədək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarusa beş dəfə, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko isə Azərbaycana dörd dəfə rəsmi səfər edib. Bu rəsmi səfərlərin intensivliyi Azərbaycan-Belarus əlaqələrinin inkişaf dinamikasından xəbər verir.

"Dövlətimizin başçısının Belarusa budəfəki rəsmi səfəri ilə bağlı bir məqamı xüsusilə qeyd etməliyəm ki, protokola görə dövlət başçıları arasında təkbətək görüş 45 dəqiqə nəzərdə tutulsa da, həmin görüş 2 saatdan artıq davam etdi. Bir daha qeyd etmək istərdim ki, bu, prezidentlər arasında olan səmimi dostluğun və Belarus-Azərbaycan əməkdaşlığının məzmun və mahiyyətinin, necə zəngin xarakter daşımasının növbəti bariz nümunəsidir", - deyə o əlavə edib.

Prezident Administrasiyasının rəsmisi deyib ki, səfər zamanı dövlət başçılarının iştirakı ilə 9 sənəd imzalandı. Bu sənədlər Azərbaycan ilə Belarus arasında iqtisadiyyat, ticarət, nəqliyyat, energetika, hüquq-mühafizə, hərbi-texniki və digər sahələrdə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Ən vacib sənəd isə dövlət başçıları tərəfindən imzalanmış birgə bəyanatdır. Bəyanatın 6-cı maddəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar məqamlar öz əksini tapıb. Bəyanatda qeyd olunur: "Tərəflər, yəni, dövlət başçıları Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn qəbul



edilmiş norma və prinsipləri, xüsusilə dövlətlərin suveren bərabərliyi, tərəflərin toxunulmazlığı, ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarları əsasında tezliklə sülh yolu ilə həllinin vacibliyini qeyd edirlər". Bu, bir daha onu göstərir ki, beynəlxalq ictimaiyyət, o cümlədən Belarus Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyir. Münaqişənin həllinin əsasları da beynəlxalq ictimaiyyət üçün aydın xarakter daşıyır ki, bu da Azərbaycanın ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələridir. Həmçinin Belarus ilə Azərbaycan arasında olan yüksək etimadın təcəssümü və göstəricisidir ki, ölkələrimiz üzv olmadığı beynəlxalq təşkilatlarda da biri-birini dəstəkləyir. Dövlətimizin başçısı mətbuata bəyanatında da qeyd etdi ki, bu, sanki avtomatik xarakter daşıyır. Yəni, hər hansı bir məsləhətləşmə olmadan belə, Azərbaycan və Belarus üzv olmadıqları, biri üzv olmadığı beynəlxalq təşkilatlarda öz dəstəyini verir və bu dəstək mütəmadi, davamlı xarakter daşıyır. Həmçinin Azərbaycan ilə Belarus arasında hərbi-texniki sahədə çox sıx əməkdaşlıq var. Səfər çərçivəsində hərbi-texniki əməkdaşlığın inkişafı ilə əlaqədar da Anlaşma Memorandumu imzalandı. Bu Memorandumdan irəli gələrək hava hücumlarından müdafiə sistemlərinin, müxtəlif hücum vasitələrinin, o cümlədən atəş-idarəetmə sistemlərinin alınması üzrə kontraktlar həyata keçiriləcək".

Hikmət Hacıyev bildirib ki, bu səfər Azərbaycan-Belarus əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi. İmzalanmış sazişlər, aparılan danışıqlar Azərbaycan-Belarus əlaqələrinin hərtərəfli inkişafı üçün yeni perspektiv imkanlar açıb. Hesab edirik ki, qarşıya qoyulan məqsəd və məramların hökumətlərarası komissiya və digər işçi qruplar vasitəsilə həyata keçirilməsi üçün intensiv işlər bundan sonra da davam etdiriləcək.

2019-cu ildə Belarus ikinci Avropa Oyunlarına ev sahibliyi edəcək. Bildiyiniz kimi, Avropa Oyunları konsepsiyasının müəllif və təşəbbüskarı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Azərbaycan birinci Avropa Oyunlarına uğurla ev sahibliyi etdi. Azərbaycan Olimpiya hərəkatının məqsəd və məramlarına sadiqliyini nümayiş etdirdi, bu məqsəd və məramların Avropa qitəsində inkişafına öz töhfəsini verdi. Azərbaycan bu sahədə öz təcrübəsini dost və tərəfdaş ölkə olan Belarus ilə açıq şəkildə bölüşür. Belarus da öz növbəsində Azərbaycanın bu dəstəyini, aparılan təcrübə mübadiləsini yüksək qiymətləndirir. Bu məqamlar Belarusun dövlət başçısı tərəfindən də qeyd olunub.

# Naxçıvan Qarnizonunun tam orta məktəbi qabaqcıl təhsil ocaqlarındandır

*Ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Azərbaycan Ordusunun muxtar respublikadakı birləşmə və hissələri ötən dövrdə müasir silah və texnikalarla təmin olunub, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyəti xeyli gücləndirilib. Muxtar respublika ərazisindəki hərbi hissələrdə məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti günü-gündən yaxşılaşdırılır.*

*Hərbi qulluqçuların ailələrinə göstərilən diqqət və qayğı məqsədilə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1992-ci ildə Naxçıvan Qarnizonunun tam orta məktəbi yaradıldı. Bu məktəb muxtar respublikanın orta ümumtəhsil məktəbləri sırasında qazandığı uğurları ilə seçilən təhsil ocaqlarındandır.*





Məktəbin dəhlizində sərgilənən şagirdlərin vətənpərvərlik mövzusunda çəkdiyi rəsmlər, idman oyunlarında qazandıqları fəxri fərman və kuboklar ilk baxışda məktəb haqqında xoş təəssürat yaradır. Məktəbin direktoru Natiq Əhmədov söhbətində bildirdi ki, valideynlərin hərbi xidməti zərurəti ilə əlaqədar şagirdlərin 90 faizi Azərbaycanın digər bölgələrindəndir. "2004-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclis sədrinin təşəbbüsü ilə hərbi şəhərciyin ərazisində məktəb üçün yeni bina inşa olunmuş, hər bir şərait yaradılmışdır. Hazırda məktəbdə fizika, kimya-biologiya laboratoriyaları, kompüter sinifləri fəaliyyət göstərir. Şagirdlərin istifadəsi üçün 10 sinifdə elektron lövhə quraşdırılıb ki, bu da dərslərin yeni texnologiyalar əsasında tədrisinə kömək edir. Məktəbdə şagird elmi cəmiyyəti fəaliyyət göstərir. Cəmiyyətin əsas məqsəd şagirdləri müstəqil işə alışdırmaq, ayrı-ayrı fənlərə maraq yaratmaqdır. Bununla əlaqədar olaraq ali təhsil müəssisələri ilə əlaqə saxlayır, tədris ilinin sonunda məktəbdə keçirilən şagird elmi cəmiyyətinin konfransında şagirdlər məruzə ilə çıxış edirlər".

Məktəbin ötən tədris ilində uğurları da az olmayıb. Orta təhsilini başa vuran məzunların hamısı ali və orta ixtisas məktəblərinə daxil olublar. 15-i 500-700 intervalında bal toplayaraq məzunlara Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən qiymətli hədiyyələr verilib. Ceyran Məmmədova məktəbi qızıl medalla, digər 7 nəfər isə fərqlənmə attestatı ilə bitiriblər.

Burada təhsillə yanaşı şagirdlərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi də diqqətdə saxlanılır. Bu məqsədlə fənn gecələri, viktorinalar, disputlar, yazı müsabiqələri, müxtəlif idman yarışları təşkil olunur. Yeni tədris ilində 18 Oktyabr Dövlət Müstəqilliyi Günü ilə əlaqədar VIII-XI siniflər arasında "Vətənin müdafiəsinə hazıram" çoxnövçülüyü üzrə, 9 Noyabr Dövlət Bayrağı Günü ilə əlaqədar stolüstü tennis üzrə məktəb birinciliyi keçirilib. Muxtar respublika üzrə qızlar arasında keçirilən həndbol yarışında məktəbin komandası II yerə layiq görülüb. Məktəbin şagirdləri Naxçıvan Əlahiddə Ümumqoşun Orduda keçirilən tədbirlərdə də fəal iştirak edirlər. Bundan başqa, tədris ili ərzində tarixi və əlamətdar günlərlə bağlı mütəmadi olaraq bilik yarışmaları və hərbi-idman oyunları keçirilir.

Məktəbdə digər fənlər kimi, Gənclərin çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisinə də ciddi fikir verilir. Əyani vəsaitlərlə təmin olunmuş kabinetlərdə keçirilən dərs zamanı videomateriallardan da istifadə edilir. Şəhidlərimizə, milli qəhrəmanlarımıza həsr olunan filmlərin nümayişi təşkil olunur. Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzinin imkanlarından da istifadə olunaraq Gənclərin Çağırışaqədərki Hərbi Hazırlıq fənninin tədrisi ilə ilkin hərbi biliklər mənimsədilir, gənclərin ordu sıralarına hazırlığının təməli qoyulur.

Məktəbin direktoru onu da bildirdi ki, məqsədimiz yalnız bilik verməklə kifayətlənmək deyil, biz həm də gələcəyə layiqli vətəndaş yetişdirməliyik. - Məktəbdə təhsil alanlar hərbçilərin övladlarıdır. Məzunlar arasında hərb peşəsini seçənlər də az deyil. Hər il Hərbi liseyə və Ali Hərbi məktəblərə çox sayda sənəd verilir. Bununla belə digər məzunlarımız da seçdikləri peşə ilə Vətənimizə, dövlətimizə layiqli xidmət etməli, ictimai işlərdə fəal olmalıdırlar. Hərbçilərimizin övladlarına yaxşı təhsil vermək, onları cəmiyyətə yararlı, vətənpərvər gənclər kimi formalaşdırmaq üçün məktəbin pedaqoji kollektivi əlindən gələni edir və edəcəkdir.

**Ruhiyyə RƏSULOVA,**
**Naxçıvan Televiziyasının baş redaktoru**

# Həzi Aslanovun ev-muzeyi, “Qoşa qala qapıları”, “Mayak” binası, Bayraq Meydanı məktəblilərin böyük marağına səbəb olub

*"Ölkəmizi tanıyaq" tur-aksiyasının iştirakçısı olan Bakının Suraxanı, Xəzər, Pirallahı və Qaradağ, eləcə də Xocalı, Zaqatala, Balakən, Qax, Mingəçevir və Kəlbəcər rayonlarının məktəbliləri noyabrın 19-da Lənkəran rayonu ilə tanışlığı davam etdiriblər.*





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, məktəblilər və onların müəllimləri Lənkəran şəhərindəki Heydər Əliyev Xatirə Parkında Ümummilli Liderin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib, Ulu Öndərin adını daşıyan mərkəzdə böyük rəhbərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar.

Sonra tur-aksiya iştirakçıları Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi "Xan evi"nə gəliblər.

Məktəblilərə məlumat verilib ki, bu tarixi abidə 1913-cü ildə xan nəslindən olan Mirəhməd xanın dəvəti ilə Avropadan gətirilmiş memarlar tərəfindən inşa edilib. Üçmərtəbəli saray Lənkəranın ilk çoxmərtəbəli binası sayılır. Burada sovetlər dönəmindən əvvəl ilk dəfə işıqlandırma və mərkəzi istilik sistemi quraşdırılıb. Hazırda bu binada yerləşən Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinin fondunda 6000-dən çox eksponat qorunur.

Lənkəran şəhərindəki "Qoşa qala qapıları", "Mayak" binası, Bayraq Meydanı, Gənclər Mərkəzi ilə tanışlıq məktəblilərin böyük marağına səbəb olub.

Daha sonra tur-aksiyanın iştirakçıları iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsini ziyarət edib, qəhrəmanın Lənkəran şəhərindəki ev-muzeyində nümayiş etdirilən eksponatlarla tanış olublar. Burada şagirdlərə Həzi Aslanovun İkinci Dünya müharibəsində keçdiyi döyüş yolu barədə ətraflı məlumat verilib. Bildirilib ki, Həzi Aslanov 1910-cu il yanvarın 22-də Lənkəranda anadan olub. Qəhrəmanın ev-muzeyi 1969-cu il mayın 9-da yaradılıb. Muzeydə 5 ekspozisiya otağı fəaliyyət göstərir.

Tur-aksiya iştirakçıları Lənkərandakı Hirkan Milli Parkına və "Xanbulan" istirahət mərkəzinə səyahət ediblər. Məktəblilərə məlumat verilib ki, Hirkan Milli Parkı Azərbaycan Respublikasının cənub-şərqində, Xəzər dənizi sahilində, Lənkəran və Astara inzibati rayonlarının ərazisində yerləşir və ümumi sahəsi 21 min 435 hektar ərazini əhatə edir. Diqqətə çatdırılıb ki, 2004-cü il fevralın 9-da Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Hirkan Milli Parkı yaradılıb. Milli Park Hirkan qoruğunun və əlavə olaraq qoruğa bitişik meşə fondunun ərazisini əhatə edir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təklifi əsasında Hirkan Milli Parkı UNESCO-nun tərtib etdiyi "Ümumdünya Mədəni və Təbii İrs Siyahısı"na daxil olması üçün qeydiyyata alınıb. Hirkan Milli Parkı çoxlu sayda endemik relikt növlərin mövcud olduğu təbiət muzeyidir. Bu muzeyin yaşı min illərlə ölçülür.

Məktəblilər Xanbulan kəndində salınmış sitrus meyvə bağları və çay plantasiyaları ilə də yaxından tanış olublar.

Tur-aksiya iştirakçılarına cənub bölgəsində çayçılığın inkişafı tarixi, müəssisədə aparılan elmi-tədqiqat işləri, təcrübələr və onların nəticələri barədə ətraflı mə-

# Mən dövlətimin gənciyəm

Bu, yaşam boyu hər kəsin öz-özünə səsləndirdiyi, cavabını axtarmağa çalışdığı sualdır. Bəs mən kiməm?

Mən hər şeydən öncə insanam. Gördüklərimə, eşitdiklərimə biganə deyiləm. Hər mövzuda deyiləcək sözüm var.

Mən müəllim olacam. Kimliyindən asılı olmayaraq insanlara öz bildiyim doğruları göstərir, fayda verəcək nəyisə öyrətməyə çalışıram.

Gələcəyin hərbi müxbiri olacam. Postda dayanan əsgərlərin dostuyam. Yeri gəldikdə onların silahdaş yoldaşı, sirdaşıyam.

Vətəndaşam. Bayrağım, gerbim, himnim, şanlı tarixim var. Yaşamağa torpağım, haqqında qürurla danışacağım qəhrəman igidlərimiz-şəhidlərimiz, əsgərlərimiz var.

Mən dövlətimin gənciyəm. Onu tanıtmaq, təmsil etmək mənim borcumdur. İnsanlarına hörmət etmək, sayğı ilə yanaşmaq mənim əsas qayəmdir. Gələcəyə daha inamlıyıq.

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun**
**II kurs tələbəsi**

*Hərbi texnikalar, silahlar*

# “NORA” B-52 özüyeriyən haubitsası



"NORA" B-52 özüyeriyən haubitsası müasir artilleriya silahıdır, Serbiyada istehsal olunub, hazırda Serbiya ordusunun silahlanmasında saxlanılmaqdadır. Fəal şəkildə bir çox ölkələrə ixrac edilir. Özüyeriyən qurğu 2006-cı ildə yüksək atəşaçma sürətinə malik artilleriya qurğusu kimi "Yuqoiport SDPR" şirkətinin hərbi mühəndisləri tərəfindən hazırlanıb. İndiyə qədər dəfələrlə modernləşdirilib. Bu qurğuda şassi qismi yüksək hərəkətetmə qabiliyyətinə malik olan FAR-2632 və KamAZ 63501-dən istifadə edilib. 152 mm-lik haubitsanın D-20 topundan istifadə edilir. İlk dəfə "NORA" B-52 özüyeriyən haubitsası Belqradda keçirilən "Partnyor-2009" silahlanma sərgisində nümayiş etdirilib. Haubitsanin çəkisi 28 ton, heyəti 4-5 nəfər, onun korpusunun uzunluğu 11000 mm, eni 2950 mm, hündürlüyü 3450 mm-dir. Zirehlənməsinə aktiv STANAG 4569 Level II, STANAG 4569 Level1, STANAG 4569 Level 2A mühafizə daxildir. "NORA" B-52" haubitsası 152 mm-lik D-20(NORA-A) topu ilə silahlanıb. Topun növü top-haubitsadır. Atəş uzaqlığı AROFS: 41 kilometrdir. Onda 2x7,62 mm-lik və yaxud 1x7,62 və 1x12,7 mm-lik pulemyotlardan istifadə edilir. "NORA" B-52 özüyeriyən haubitsası turbodizelli mühərriklə təchiz edilib və 410 at gücündədir. Şose yolda sürəti saatda 90 kilometr, kəsişmə yerlərdə saatda 15 kilometrə qədərdir. Şose yolda ehtiyat hərəkəti 1000 (saatda 80 kilometr olmaqla) kilometrdir. "NORA" B-52 haubitsası mərmi, güllə və qəlpələrə, eləcə də minalara qarşı güclü mühafizəyə malikdir. "NORA" B-52 özüyeriyən haubitsası dəmiryolu, dəniz nəqliyyatı və İL-76 təyyarəsi ilə daşınır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Kabildə partlayış nəticəsində həlak olanların sayı 55 nəfərə çatıb



Çərşənbə axşamı günü Əfqanıstanın paytaxtı Kabildə baş verən partlayış nəticəsində həlak olanların sayı 55 nəfərə çatıb, 94 nəfər yaralanıb.

Partlayış noyabrın 20-də Kabil şəhərinin mərkəzində yerləşən səadət sarayında törədilib. Terrorçu-kamikadze üzərindəki partlayıcı qurğunu Məhəmməd peyğəmbərin mövludunun bayram edildiyi salonda, izdihamın arasında işə salıb. Telekanalın məlumatına görə, hadisə zamanı şadlıq sarayında azı 1000 nəfər olub.

Əfqanıstan Prezidenti Əşrəf Qani noyabrın 21-ni ölkədə matəm günü elan edib. Terror aktının məsuliyyətini hələlik heç bir qruplaşma üzərinə götürməyib.

## Yunanıstan sahillərində Türkiyəyə məxsus gəmi yanıb



Yunanıstan sahillərində, Pelopones adasının cənubunda Türkiyə bayrağı altında üzən "Kilic 1" adlı yük gəmisi yanıb.

Tunisdən Türkiyəyə yük daşıyan gəminin ekipaj üzvləri xilas edilib. Gəmidə 20 ton dizel yanacağı olub.

Hadisə yerinə sahil mühafizə xidmətinin əməkdaşları və yanğınsöndürənlər cəlb olunub.

## Hindistanda sursat anbarında partlayış baş verib



Hindistanın Maharaştra ştatında mərkəzi sursat anbarında güclü partlayış nəticəsində ən azı 6 nəfər ölüb, 10 nəfər yaralanıb.

Hadisə Vardha rayonu ərazisində baş verib. Partlayışa istifadə müddəti bitmiş sursatların anbara yaxın ərazidə məhv edilməsi zamanı ehtiyatsızlıq səbəb olub.

Yerli polis məntəqəsinin zabiti bildirib ki, yaralananlardan 4-nün vəziyyəti ağırdır. Bütün yaralılar xəstəxanalara yerləşdiriliblər, hazırda təhqiqat aparılır.

Məlumata görə, vaxtı keçmiş sursatların partlayışla məhv edilməsi prosesini müqavilə əsasında bir neçə şirkət həyata keçirirmiş. Həmin şirkətlər yaxınlıqdakı kəndin sakinlərinə cüzi əməkhaqqı ödəməklə onları prosesə cəlb edirmişlər. Partlayış zamanı ölənlərin də kənd sakinləri olduğu bildirilir.

## Koreya müharibəsində həlak olmuş ABŞ əsgərlərinin xatirəsi Seulda anılıb



Cənubi Koreyada 1950-1953-cü illərdə Koreya müharibəsində həlak olmuş və sonradan cəsədlərinin qalıqları tapılan hərbçilərin xatirəsinə həsr olunan mərasim keçirilib.

Cəsədlərin qalıqları 1951-ci ildə Seuldan 175 kilometr şimal-şərqdə yerləşən Yanqu qəsəbəsi ərazisində döyüşlərdə öldürülmüş ABŞ ordusunun 7-ci diviziyasının hərbçilərinə aid olduğu güman edilir.

BMT qoşunlarının komandanı general Robert Abrahams bildirib ki, cəsədlərin qalıqları ABŞ Müdafiə Departamentinin və Cənubi Koreyanın döyüşlərdə ölmüş, itkin düşmüş və əsir götürülmüş şəxslərlə iş üzrə agentliyinin birgə səyləri nəticəsində tapılıb.

Qeyd edək ki, ABŞ tərəfinin məlumatına əsasən, Koreya müharibəsində təxminən 5300 ABŞ hərbçisi itkin düşüb. Cənubi Koreya ərazisində müxtəlif vaxtlarda bir neçə ABŞ hərbçisinin cəsədlərinin qalıqları tapılıb. Bundan başqa, cari ilin iyun ayında ABŞ və KXDR liderlərinin Sinqapur görüşündə ABŞ hərbçilərinin cəsədlərinin tapılması və qaytarılmasına dair razılıq əldə olunmuşdu. İyulda isə KXDR 55 cəsədin qalıqlarını ABŞ tərəfinə təhvil vermişdi.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Fiziki hazırlığımız yüksək səviyyədədir



*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin fiziki hazırlığının təmin edilməsi üçün yaradılan şərait diqqətimizi cəlb etdi. Müdafiə Nazirliyi rəhbərliyinin göstərdiyi diqqət və qayğı nəticəsində müasir standartlara uyğun qurulan idman şəhərciyi hərbi qulluqçularımızın idmanla məşğul olmalarına, onların əsl hərbçi kimi formalaşmalarına imkan verir. Şəhərcikdə səliqə-sahman hökm sürür. Belə gözəl şəraitdə əsgərlərin günün nizam qaydasına uyğun olaraq fiziki hazırlıq məşğələsi ilə məşğul olmasının şahidi oluruq.*

- Şəxsi heyət günün nizam qaydasına uyğun olaraq fiziki hazırlıq məşğələsini yerinə yetirir, - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Samir Əliyev bildirdi. Söhbət əsnasında öyrənirik ki, Samirin dayısı Adil Ağayev Qarabağ müharibəsində şəhid olub, əmisi Mehman Əliyev isə Xocavənd istiqamətində gedən döyüşlərdə yaralanıb, hal-hazırda müharibə veteranıdır. Kiçik çavuş S.Əliyev keçirilən məşğələ barəsində bizlərə geniş məlumatlar verdi. "Əsgərlərimiz müxtəlif idman qurğularında cəld hərəkətlər edərək, normativləri yerinə yetirirlər. Normativlərə 100 və 3000 metr məsafələrə qaçış, turnik, paralel qollarla hərəkət, pres, jim və s. daxildir. Əsgərlərimizin fiziki hazırlıq məşğələsinə həvəsləri böyükdür. Əlbəttə, fiziki cəhətdən güclü olan əsgər döyüş meydanında qalib olacaq. Müharibə zamanı əsgər fiziki cəhətdən güclü olmalıdır ki, güllə atəşi altında yaralı silah yoldaşını döyüş meydanından təxliyə edə bilsin. Digər tərəfdən isə düşmənlərimizlə üz-üzə gəldikdə onları əlbəyaxa döyüşdə məhv etsin."

Zaqatala rayonundan orduı sıralarına çağırılan əsgər Məhəmməd Amanov dedi ki, kiçik yaşlarından idmana böyük maraq göstərib. İdmanın boks növü ilə məşğul olub, hətta 2013-cü ildə keçirilən respublika çempionatının qalibi olub. "Mütəmadi məşq etdikdən sonra müəllimim kiçik yarışlara özümü sınamaq üçün şərait yaratdı. Etiraf edim ki, ilk dəfə yarışa qatıldıqda çox həyəcanlı idim. Özümü ələ almağa çalışırdım. Öz-özlüyümdə deyirdim ki, burada qorxulu heç nə yoxdur, sən qalib gələcəksən. Rinqə çıxdıqda, rəqibimlə üz-üzə gəldikdə həyəcan əvəzinə, döyüşməyi və qalib gəlməyi düşünürdüm. Şükürlər olsun ki, respublika çempionu oldum".

Sözlərinin sonunda əsgər M.Amanov qeyd etdi ki, əsgər kimi də qalibiyyət sevincini yaşamaq arzusundadır. "Mən arzu edirəm ki, Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə doğma Qarabağımızı işğaldan azad edib, orada təşkil olunan Qarabağ çempionatında da uğurlar qazanım".

Digər müsahibim isə hərbi xidmətə Astara rayonundan çağırılan əsgər Anar Möyləyevdir. "Bizlərə keçirilən ictimai-siyasi hazırlıq, döyüş və atəş hazırlıqları sayəsində döyüş vərdişlərimizi təkmilləşdirir, fiziki cəhətdən daha güclü, dözümlü, iradəli, sağlam oluruq. Əlbəttə, bunları bizlərə öyrədən komandirlərimizə minnətdarlığımızı bildiririk. Üzərimizə düşən əsas vəzifə isə döyüş əmri ilə erməni qəsbkarlarından qisasımızı almaqdır. Bu günü mənim kimi



hər bir Azərbaycan əsgəri səbirsizliklə gözləyir".

Mingəçevir şəhərindən ordu sıralarına çağırılan əsgər Nurlan Məmmədhüseynov da mülki həyatda idman yarışlarında iştirak edib və bir sıra uğurlara imza atıb. Güləşə böyük maraq göstərən Nurlan az vaxt ərzində idmanın sirlərinə dərindən yiyələnib. Bu səbəbdən idmanda uğurlar qazanıb. Əsgər N.Məmmədhüseynov tərxis olduqdan sonra da yenidən idmanla məşğul olacağını və yeni nailiyyətlər əldə edəcəyini bildirdi. "Mənim üçün ən əsası idman yox, düşmənlərimiz tərəfindən işğala məruz qalan doğma Qarabağımızdır. Bunun üçün də hər birimiz var qüvvəmizlə çalışmalıyıq ki, yüzlərlə soydaşlarımızın canlarına susayan, minlərlə vətəndaşımızı elindən-obasından didərgin salan erməni qəsbkarlarından qisasımızı alaq. Ali Baş Komandanımızın döyüş əmri ilə onları məhv edəcəyik. Aprel döyüşləri bir daha sübut etdi ki, doğma elimizə qovuşmaq üçün qarşımızda heç bir əngəl tanımayacağıq".

Digər əsgərlər də Ali Baş Komandan İlham Əliyevin döyüş əmri ilə erməni qəsbkarlarını məhv edəcəyi günü səbirsizliklə gözlədiklərini bildirdilər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

*Yeni kitablar*

# Qələbəyə inamla

İnsanın maraq dünyasına min-min dünyalar sığar. Yazıçı və şairlərin ömür yollarından bəhs edən kitablar, gündəliklər və xatirələr toplusu da bədii əsərlər qədər maraqla oxunur.

Bu günlərdə yazıçı-publisist Nemət Veysəllinin "Geriyə yol varmı" kitabı işıq üzü görüb. Kitab yaralı yerimiz olan Qarabağımıza həsr olunub. Əsəri oxuduqca bir insan ömrünün keçdiyi yolla yaxından tanış oldum. Harada xatirələr çözələnib dilə gəlirsə, orada kövrəklik küləyi əsir.

Bir çoxları kimi müharibələr Nemət Veysəllinin də ömrünə sarsıdıcı zərbələr vurub. Böyük Vətən müharibəsinə çağırılan atası Bayramalı kişi hitlerçilərlə döyüşdə həlak olub. Müharibə ömrünün başlanğıcında onu atasız qoyub. İllər sonra N.Veysəlli özü Qarabağ müharibəsində hərbi jurnalist kimi iştirak edib. Bir-birindən gərgin günlər yaşayıb. Sonrakı illərdə bu yaşantıları kitablara köçürüb.

"Geriyə yol varmı". Əslində, müəllif bu sualı ilə hamıya - illərdən bəri Qarabağın və işğal olunmuş başqa rayonların erməni işğalçılarından sülh yolu ilə azad olunması işi ilə məşğul olan beynəlxalq təşkilatlara, hər bir vətəndaşa ünvanlayıb. Torpaq itkisi, yurd həsrəti dözülməzdir. Uzun illərdir ki, erməni qəsbkarları başqa ərazilərimiz kimi, müəllifin doğma kəndini də işğal altında saxlayır. Kitabı oxuduqca Nemət müəllimin xatirələri əlimizdən tutub bizi onun ömrünün ilk çağlarına çəkib aparır. Sanki Yuxarı Veysəllinin küçələrini, geniş çöllərini gəzirik.

Bu sualın mahiyyətində qələbə ovqatı olduğu da duyulandır; bir inam da var bu sualda - işğaldan azad ediləcək kəndlərimiz də Cocuq Mərcanlı kimi yenidən qurulacaq.

Nemət müəllim xatirələrində ermənilərin azərbaycanlılara qarşı faciələrdən yazır. "Herher kəndi" bölməsindəki xatirələrində daşnakların azərbaycanlılara olan münasibətləri aydın və əhatəli şəkildə işıqlandırılıb. Yazılanlardan belə nəticəyə gəlmək olur ki, ermənilərin gözü həmişə torpaqlarımızda olub. Ərazilərimizi ələ keçirmək üçün min cür hiylə qurublar.

İllərdir torpaqlarımızın işğalı ürəyimizi yandırır. Torpaqlarımıza dönəcəyimiz günü intizarla gözləyirik. İnanırıq ki, ümidimiz heç vaxt ölməyəcək. Gec-tez həsrətə son qoyulacaq, günlərin birində yurd həsrətli minlərlə insan Azərbaycan Ordusunun erməni işğalçılarından azad edəcəkləri doğma ocaqlarına dönəcək.




Təbiidir ki, müharibə şəraiti uzun müddət davam edə bilməz. Gündən-günə gücünü, qüdrətini artıran ordumuz torpaqlarımızı erməni işğalçılarından azad etməyə qadirdir. Döyüş şəraitinə uyğun keçirilən təlimlərdən qələbə qoxusu gəlir.

Düşmən getdikcə zəifləyir, bizsə güclənirik, daim qəsbkarları üstələyirik. Döyüş meydanlarında da düşməni məğlub edəcəyik. Deməli, torpaqlarımıza dönəcəyimiz günə az qalıb. Bu kitabı bu inamla oxuyuruq...

**Vahid MƏHƏRRƏMOV**

# Bu həftə 300-dən çox şəhid hərbi qulluqçunun vərəsəsinə birdəfəlik ödəmə veriləcək

*Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 19 aprel tarixli Fərmanına əsasən, şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi prosesi uğurla davam edir.*

AZƏRTAC xəbər verir ki, artıq 281 vərəsədən 150-dən çoxu ödəmə ilə təmin olunub. Bundan başqa, əlavə sığorta ödənişinin verilməsinə dair məhkəmə aktı olan daha 471 vərəsənin hesabına birdəfəlik ödəniş edilib. Bu həftə daha 300-dən çox şəhid hərbi qulluqçunun vərəsəsinə birdəfəlik ödənişlərin edilməsi nəzərdə tutulub.

Şəffaflığın həyata keçirilməsi üçün qaydalar da hazırlanıb. Bunun üçün vərəsələr şəhidlik statusunun tanınmasına dair bütün sənədləri yalnız "ASAN xidmət"ə təqdim edirlər. Bu isə həm vaxt itkisinin qarşısını alır, həm də vətəndaşı əlavə əziyyətlərdən xilas edir. Ödəmələr vərəsələrin bank hesabına köçürüləndə onlara bildirişlər göndərilir.

Birdəfəlik ödəmələrin verilməsi gələn ilin sonunadək başa çatdırılacaq.

Xatırladaq ki, ümumilikdə 9531 şəhid hərbi qulluqçunun vərəsəsinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib.

Osmanov Hamid Osman oğluna verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 973
Nüsxə 3525